# Elektron Ədəbiyyat İnstitutu

Müasir dünyamızı internetsiz təsəvvür etmək olduqca çətindir. Dünyada elektronlaşmanın miqyası həm şaquli, həm də üfüqi istiqamətdə sürətlə inkişaf edir. Ötən əsrin ortalarından sadə əməliyyatları həyata keçirən və həcm etibarilə olduqca böyük elektron hesablama maşınları bir neçə onilliklər ərzində sürətlə modernləşdi. İnternetin kəşf olunması ilə virtual mühit deyilən nəsnə meydana çıxdı. Bu proses sürətli sel kimi əvvəlki ənənəvi vasitələri önünə alaraq yeni metod və üsulları ərsəyə gətirdi. Artıq dünyada kağızın az istifadə olunduğu elektron idarəetməyə keçid baş verir. Dünyanın qabaqcıl bu kimi tendensiyalarına uyğun addımlayan Azərbaycan bu prosesdə nəinki bir iştirakçı kimi çıxış edir, eyni zamanda, özünün modelini ortaya qoymağa bacarır. Ölkəmizdə qurulan Asan xidmət mərkəzləri yaxşı bir model olaraq dünyada öyrənilir. Ölkəmizdə elektron idarəetmənin çevik təşkili üçün Elektron Hökumət portalı qurulub. Bir çox maliyyə, vergi və s. kimi əməliyyatlar birbaşa internet üzərindən, Asan imza vasitəsilə həyata keçirilir.

Təbii olaraq müasir və inkişaf edən istənilən qurum öz işini çevik və məhsuldar görmək üçün elektron vasitələrə müraciət edir. Onun imkanlarından faydalanır. Ölkəmizin elm məbədi Azərbaycan Milli Elmlər Akademiyası maddi-texniki bazası baxımından bu prosesdə fəal iştirak edir. Həyata keçirilən islahatlar elektronlaşmanın miqyasını genişləndirir və işin daha səmərəli qurulmasına töhfə verir.

Son beş ildə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda elektron vasitələrin quraşdırılması istiqamətində əhəmiyyətli işlər həyata keçirilmişdir. AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli institutun işinin səmərəli təşkili, ədəbiyyatşünaslıq istiqamətində aparılan tədqiqatları daha da sürətləndirmək naminə elektron vasitələrin tətbiqinin genişləndirilməsi üçün əhəmiyyətli addımlar atmışdır. Akademik İsa Həbibbəylinin rəhbərliyi ilə institutun maddi-texniki bazası güclənmiş, elektron mühitə çıxış imkanları artmış və nəticədə müasir dillə desək Elektron Ədəbiyyat İnstitutu bütün cəhətləri ilə formalaşmışdır. Elektron akt zalı (2014), Elektron ekran (2016), Elektron oxu zalı (2016) və institutun üç dildə fəaliyyət göstərən saytı (2016) son beş ildə Elektron Ədəbiyyat İnstitutunun formalaşdığını göstərən faktlardır.

### *Elektron akt zalı*

2014-cü ildə akademik İsa Həbibbəylinin rəhbərliyi ilə institutun ən önəmli mərkəzlərindən biri, Elektron akt zalı quruldu. Ötən illər ərzində yüzlərlə konfrans, simpozium, müxtəlif görüşlər, dərslər və s. formatlı tədbirlər məhz institutun "Bəyaz zalı"nda keçirilmişdir. İnstitutun akt zalı ən müasir texniki avadanlıqlarla təmin olunmuşdur. Zalda ən müxtəlif slaydları, videotəqdimatların həyata keçirildiyi ağıllı lövhə quraşdırılmışdır. Həmçinin, yüksək sürətli internetlə təmin olunan Wi-Fi şəbəkəsi mövcuddur. Dünyada ən yüksək keyfiyyətli videoəlaqəni təmin edən qurğu - Polycam kameranın quraşdırılması zalın yüksək texniki təminatının mühüm göstəricisidir. Polycam kamera çevik və yüksək ötürücülük qabiliyyəti sayəsində dünyanın bir neçə ölkəsi ilə eyni zamanda videokonfranslar, debatlar, mühazirələr keçirməyə imkan verir. Ötən illər ərzində bu qurğunun vasitəsilə bir sıra xarici ölkələr, eləcə də yerli univeristet və institutlarla birlikdə konfranslar, mühazirələr keçirilmişdir. Tacikistan Elmlər Akademiyası ilə onlayn şəkildə keçirilən Əbdürrəhman Cami beynəlxalq konfransı, Stavropol Pedaqoji Universiteti ilə Nobel mükafatı laureatı Mixail Şoloxova həsr edilmiş elmi konfrans, Naxçıvan Dövlət Universiteti ilə bir neçə dəfə keçirilmiş elmi konfranslar və müzakirələr Elektron akt zalı vasitəsilə gerçəkləşdirilmişdir. Elmi konfranslar və elmi-ədəbi tədbirləri əks etdirən rəngarəng slaydların nümayiş etdirilməsi, hətta sənədli filmlərin göstərilməsi Elektron akt zalının elmi mühitə gətirdiyi yeniliklərdir.

### *Elektron ekran*

2016-cı ildə institutda elektron vasitələrlə təmini baxımından daha bir mühüm addım atılmışdır. İnstitutun beşinci mərtəbədəki dəhlizində çoxfunksiyalı, "touch"- toxunuşla idarə olunan elektron ekran quraşdırılmışdır. Elektron ekranda hər gün mühüm informasiyalar, ölkəmiz və elmimiz üçün əhəmiyyətli hadisələrlə bağlı ən müxtəlif videotəqdimatlar, slaydlar, şəkillər nümayiş olunur. İnstitutun elmi informasiya və tərcümə şöbəsi tərəfindən təqvimdəki əlamətdar günlər, görkəmli elm xadimləri, onların yubileyləri, eləcə də institutda keçirilən konfranslar, simpozium və tədbirlərlə bağlı daim yenilənən slaydlar, videoçarxlar hazırlanaraq ekran vasitəsilə nümayiş etdirilir. Bir sözlə, elektron ekran özünün mükəmməl funksiyaları ilə institutda aparılan genişmiqyaslı işin uğurlu təqdimatını həyata keçirən elektron vasitədir.

**Mehman HƏSƏNLİ**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru*



*Elektron oxu zalı*

Elm adamını kitabsız, elmi qurumu isə kitabxanasız təsəvvür etmək qeyri-mümkündür. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun kitabxanası daim əməkdaşlara xidmət edir və son illər kitabxananın zənginləşməsi baxımından bir sıra işlər həyata keçirilmiş və keçirilməkdə davam edir. Son illər kitabxana fondunun elektron kataloqu hazırlanmışdır. Elektron kataloqun hazırlanması növbəti mərhələ - elektron oxu zalının yaradılması zərurətini meydana çıxarmışdır. İnstitutun direktoru, akademik İsa Həbibbəyli növbəti layihəni - Elektron oxu zalının qurulması ideyasını 2016-cı ilin dekabr ayında gerçəkləşdirmişdir. Elektron oxu zalı funksionallığı baxımından tədqiqatçılar üçün olduqca geniş imkanlar açır. Ötən iki ilin müşahidələri onu deməyə əsas verir ki, elektron kitabxana institut əməkdaşlarının ən çox müraciət etdiyi, faydalandığı yerlərdən biridir. Kitabxana yüksək sürətli internetlə təmin olunub. Burada İnstitut əməkdaşlarının faydalanması üçün kompüterlər quraşdırılıb. Əməkdaşlar elektron kataloq vasitəsilə kitabxanadan seçim etmək, eyni zamanda elektron axtarış edərək elmi araşdırmalarını aparmaq imkanı əldə etmişlər. Elektron oxu zalı elmi fəaliyyətin daha da səmərəli təşkili üçün mühüm əhəmiyyətə malik olan layihədir.

Elektron oxu zalının dünya və ölkə kitabxanalarına çıxışı vardır.

### *www.literature.az*

Müasir çağımızda hər bir qurumun ən əsas təqdimatlarından biri onun elektron saytıdır. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun www.literature.az portalı 2013-cü ildə indiki dövrə görə məhdud texniki imkanlarla fəaliyyətə başlamışdır. Lakin zaman sürətlə axır və elmi-texniki inkişaf zamana uyğun olaraq inkişaf edir. 2016-cı ildə institutun sifarişi ilə sayt yenidən, ən son proqram təminatı ilə dizayn olunaraq qurulmuşdur. İnstitutun saytı bu gün bu sinifdə hazırlanmış ən yaxşı saytlardan biridir. Hal-hazırda üç dildə - Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərir.

Sayt vasitəsilə institutun tarixi, fəaliyyət istiqamətləri, strukturu, elmi heyəti barədə müfəssəl məlumat almaq mümkündür. İnstitutun elmi şurası, dissertasiya şurası, müdafiə işlərinin avtoreferatları ilə saytda tanış olmaq olar. Həmçinin təhsil bölməsində institutdan magistratura, fəlsəfə doktorluğu və elmlər doktorluğu üzrə hazırlıq, dərs cədvəlləri və imtahanların keçirilməsi ilə bağlı məlumatlar yerləşdirilir. İnstitutun nəşr etdirdiyi kitablar, jurnallar haqqında və eləcə də onların elektron versiyaları saytda geniş oxuculara təqdim olunur.

www.literature.az portalında institutda keçirilən konfrans, simpozium və tədbirlər, nəşr olunan kitablar və jurnallar, əməkdaşların elmi məqalələri, KİV-də çıxışları operativ şəkildə geniş ictimaiyyətə çatdırılır.

Akademik İsa Həbibbəylinin rəhbərliyi ilə Ədəbiyyat İnstitutu hər gün dinamik şəkildə inkişaf etməkdədir. İnstitutun şöbələrində də elektron təchizat yaxşılaşdırılmış, əlavə kompüterlərlə təmin olunmuşdur. Görülən işlərin nəticəsində tam əminliklə Elektron Ədəbiyyat İnstitutu nümunəsindən danışa bilərik. Elektron Ədəbiyyat İnstitutu XXI əsrin müasir tipli yeniləşmiş Ədəbiyyat İnstitutudur.